# Azərbaycan teatr tarixində ilk dəfə - "KOD ADI - VXA"

## (Esse-resenziya məşq prosesləri əsasında yazılıb)

*(Əvvəli ötən sayımızda)*

Tamaşanın təcəssüm prosesində daha çox tarixi gerçəkliyin müasir teatr prosesinə uyğunlaşdırılması istəyi olsa da, Mehiban xanım bədii təfəkkür formulundan da istifadə etmişdir. Məşqlərdə prosesi izlədikcə bir daha əminlik yaranır ki, Mehriban Ələkbərzadə üçün "Kod adı: VXA"-da həyati model daha üstünlük təşkil edir. Və o, model gerçəkliyini yaratmaq üçün onlarla nümunə seçib (istintaq sənədlərinə əsasən mühakimə olunanlar): 30024-Şükriyyə Axundzadə (Kəmalə Müzəffər), 2385-Ceyran Bayramova (Leyli Vəliyeva), 30037-Umgülsüm Sadıxzadə (Qəmər Məmmədova), 28965-Xavər Qarayeva (Şəfəq Əliyeva), 2496-Ayna Sultanova (Günel Məmmədova), 30418-İzzət Vəzirova (Gülər Nəbiyeva), 10506-Dilbər Axundzadə (Aygün Fətullayeva), 30419-Şövkət Məmmədxanova (Səbinə Məmmədzadə), 30415-Tamara Hüseynova (Asya Atakişiyeva), 1775-Zivər Əfəndiyeva (İlqarə Tosova), 30510-Panfiliya Tanalidi (Zülfiyyə Alhüseynova), 2239-Firəngiz Rzayeva (Mehriban Abdullayeva), 29954- Xədicə İzmayılova (Sevinc Əziz), 22482-Güllü Camalbəyova (Zemfira Əbdülsəmədova), 30789-Anna Kisilyova (Könül Əbilova), 30585- Sitarə Qarayeva (Nübar Novruzova), 30212-Xədicə Qayıbova (Fəridə Qurbanova), 23346-Kriminal avtoritet (Naibə Allahverdiyeva), 30418-Mariya Paşina (Təhminə Məmmədova), 82185-Yelizaveta Qorbunova (Yasəmən Məmmədova), 30221- Kövsər Seyidbəyli (Nəsibə Eldarova), 82231-Xədicə Kəngərlinskaya (Xalidə Əlimməmmədova), 2385-Gülarə Qədirbəyova (Nuriyyə Əliyeva), 2334-Suğra İsazadə (Şəbnəm Hüseynova), 1314-Sənubər Eyyubova (Simuzər Ağakişiyeva), 29997- Natalya Talıblı (Mehriban Hüseynova), 30001-Məryəm Mirqədirova (İradə Rəşidova), 29998-Ruhiyyə Qurbanova (Güşvər Şərifova), 29981-Firuzə Eminbəyli (Gülbəniz Lətifova), 2230- Mədinə Qiyasbəyli (Hüsniyyə Əhmədova), 30610-Mələk Qədirli (Xəyalə Qasımova), 1746-Alyona Şaxova (Zümrüd Quliyeva), 29988-Nəimə Məmmədova (Aybəniz Heydərova), 30073-Anastasiya Qasımova (İlahə Əmirxanova), 30527-Fəridə Salamzadə (Nuranə Hüseynova), 10222-Səfurə Səlimova (Venera Abbasova) və bir neçə kişi-Qəzənfər Musabəyov (Kərəm Hadızadə), Həmid Sultanov (Araz Pirimov), Qoca qazax (Vahid Əliyev), Məmməd (Hilal Dəmirov), Orxan (Bəhram Əliheydər), Şaban (Anar Səfiyev), Əziz (Nurlan Süleymanlı).



"Kod adı: VXA"-da həyati modelin obraz gerçəkliyi özünün parlaq siması ilə səhnə təcəssümündə intişar tapır.

### Rejissor təcəssümü və ya unudulmuş zamanın ağrısı

Səhnə - məkandır, amma zaman içində mövcuddur. Baş verənlərin təcəssüm olunan obraz zamanı ilə tamaşaçı zamanı uyğunlaşdırılmış zamandır. Zamanlar anlayışını Mehriban Ələkbərzadə böyük ustalıqla uyğunlaşdırıb: biz tarixinizə sanki indi baş verirmiş kimi baxır, sarsılır, emosional duyğularımız bütün daxilimizi silkələyir. Zaman və məkan həqiqətinin əsasında, həm də "Sabah" adlanan zamana da bir mesaj ötürülür.

Detonasiyanı qəti sevmir. Empirik vasitələrin imkanlarından yararlansa da, ona Mehriban Ələkbərzadəyə məxsus ruhi diqtələr əlavə edir. Nəticədə, "Kod adı: VXA" ilə ürək göynətsə də, düşünürük ki, baş verən faciəni bir anlıq unutsaq, o zaman gözlərimizdə ciddi təcəssüm estetikası canlanar. Quruluşçu rejissor fiziki fəaliyyət üçün dairəvi, kəsişən, çarpaz, qala, üçbucaq, paralel, "pərakəndə", "anarxist" (bu fikir bizə aiddir - R.R.) mizanların hər birindən ustalıqla istifadə edib. Çünki quruluşçu rejissor hər bir obraz üzərində incə detallarla işləyib, məşq prosesində də biz bunun şahidi olurduq. Mizanların özəyindən doğan fiziki elementlərin alt qatında sətraltı məna yatır. Bu ağır prosesin quruluşçu rejissor tərəfindən məntiqi çalarlarla şərhi aktyorlara imkan verir ki, onlar yükünü daşıdıqları personajların mahiyyət və mənasını açıqlayıb obraza çevirsinlər.

**Rejissor göstərişləri dramaturqun göstəriciləri ilə dirçəlir: dramaturji materialla səhnə təcəssümü, müəllif ideyası ilə tamaşa ideyası, nəticədə, hər iki hal ali teatr ideyasına xidmət edir. İstedad və ağlın qovuşuğundan yaranan belə bir təcəssüm Mehriban Ələkbərzadə və onun komandasının hər kəsə nəsib olmayan potensial imkanlarından törəyir.**

Məsələ Mehriban Ələkbərzadənin səhnəyə gətirdiyi "37"lərin statik ölçüsündə deyil, gördüyü işlərin miqyasında da deyil, məsələ yaratdığı obrazların və onların cəmləşdirildiyi dramaturji materialın dəyərindədir. Repressiyaya uğramış bütün Azərbaycan elitasının xanımlarının obrazını səhnəyə gətirən dramaturq onların intellektual səviyyəsini qorumağa çalışmışdır, çünki həmin qadınların hər biri özlərinin mühitə uyğun intellektual səviyyəsini qorumaq istəyində olub.

Sürgündə qadınları qamış istehsalında çalışdırırlar. Mehriban Ələkbərzadə orijinal bir vasitə ilə tamaşanın təcəssümünü daha da dərinləşdirir və rəmzləşdirir: ifaçılar bir-birinə tikilmiş qamışları qaldırırlar. Əvvəlcə üç yarımdairə şəklinə salıb özlərini onun içində saxlayırlar. Bu dörd divar - həbsxana həyatına rəmzdir. Aktyorlar daimi hərəkətdə ikən üç dairəni birləşdirib nəhəng bir dairə yaradırlar. Bu, daimi hərəkətdə olan yer kürəsi və üstündə çıxılmaz labirintə düşmüş qadınlara bir rəmzdir. Üçüncü fiqur isə ifaçıların daimi hərəkətindən yaranmış dairənin bir anda nəhəng hasara çevrilməsidir. Bu, keçilməz səddir. Bu səddi "37"-ləri törədən yaradıblar... Həsir hasarın o tayından köməksiz qadınlar həbsxanadan azad olmuş qadınlara əl edirlər. Onların hasar qamışlarının arasından çıxan əlləri görünür... Maraqlı quruluş, maraqlı tapıntıdır! Mehriban Ələkbərzadə sanki bir kino kadrı yaradır. İşıq üzrə rəssam Vadim Kuskovun köməkçi vasitə kimi istifadə etdiyi işıq effektlərinin sayəsində səhnə kadrı təsvir kadrına çevrilir.

**Repressiyaya uğramış qadınları Akmola gətirirlər. Bu sonuncu stansiyada çölün düzünə atılan nazik paltarda, uzun müddət ac, susuz saxlanılmış qadınların qarın altında yeganə sığınacaq yerləri taqətdən düşmüş bədənləridir. Onlar yazıqcasına, sonsuz bir qorxu içində, başlarına qar döyədöyə bir-birinə sığınırlar. Dramaturq-rejissor zamanın sərt üzünü, tərs üzünü göstərir: radiodan SSRİ-ni mədh edən bir mahnı səslənir:**

-Şiroko, strana moya rodnaya,
Mnoqo v ney lesov, poley, rek.
Ya takoy druqoy strani ne znayu
Qde tak volna dışet çelovek...

Konvoylar sürgün olunmuş qadınları yerlərində addımlayaraq bu mahnını oxumağa məcbur edirlər. Həmin anda qadınların əllərində köhnə dəmirdən yemək qabı var. Bu müdhiş epizod dramaturq ağlından sıçrayan və onu səhnədə canlandıran aktyorların (əslində sovet dövlətinin təbliğ etdiyi humanist qanunların müqabilində heç bir günahı olmayan məhz sovet vətəndaşlarına yaşatdırdıqlarına görə) o dövlətin özünə, onun qanun keşikçiləri üzərində görünməmiş bir istehzasıdır; insanlara bir udum havanı belə haram edən, yalançı kommunizm ideologiyası ilə bütün sovet vətəndaşlarını əsir vəziyyətində yaşamağa məcbur edən bir dövlətin özünün özü üzərində dərin istehzasıdır! Bütün bu orijinal tapıntıların içində qadın ağrıları var. Və mənim kişi qəlbim qadınların bu ağrılarına tab gətirməyib kövrəldi, gözlərimə nəm çilədi... "Halal olsun!"-dedim yaradanlara!

Əslində bu qadınlar tale baxımından bir-birindən fərqlənmirlər. Mehriban Ələkbərzadə işgəncələrə məruz qalan qadınların çığırtılarını meditasiya ilə əvəz edib. Bu, ağlın və məntiqin bağışladığı fəndgirlikdir. Bir tərəfdən tamaşaçını bezdirməmək üçün səssiz və sözsüz ağrılardan istifadə edirsə, digər tərəfdən belə ağrıların tamaşaçı qəlbinə təsir edəcəyinə inanıb. Biz bu ağrıları daxilimizdə hiss etdik. Çünki istedadlı rejissor mizan-fiziki fəaliyyət növünü elə tətbiq edir ki, ifaçılar sokral vəziyyətə düşürlər. Əminik ki, Mehriban Ələkbərzadə arxivlərdə bu sənədlər üzərində işləyərkən, əvvəlcə povesti, sonra pyesi yazarkən, hazırda onun səhnə təcəssümünü verərkən özü sokral vəziyyətdə olub və olmaqda davam edir... Sadəcə, Mehriban xanım hisslərini bürüzə verməmək üçün daxilində boğmağı bacarır. (Fürsət var ikən, arxiv sənədlərini etibar etdiklərinə görə həmin mötəbər təşkilata, bir vətəndaş kimi, təşəkkürümüzü bildiririk!)

Nəhəng kütlə ilə işləmək, hər birini aydın görüb və tamaşaçıya göstərmək qeyri-adi daxili göz və duyum tələb edir. Hörmətli rejissorumuz tamaşanı elə şəkildə nizamlayıb, həm də mizanlayıb ki, kölgədə qalan heç bir obraz yoxdur: nəhəng kütlə aydın görüntülənməklə yanaşı, səhnəni təkcə fiziki bədənlə doldurmağa çalışmayıb, həm də onun motivə uyğun proporsional paylanmasına nail olub. Bu, quruluşçu rejissorun özün üçün oyunqurma metodunun üstündən xətt çəkərək, mizanlara pauzalardan qapıaçma ustalığından irəli gəlir.

**Mizanların variasiyası bu tamaşanın ağısıdır. Bu variasiya zamanın həqiqətinə bağlı qapını açır, gah nalə, gah da bayquş ulaması təəssürati verir, gah həzin musiqiyə çevrilir, gah da qadın naləsi kimi zala səpələnir. Mehriban xanım hər yaradıcı insanın bacarmadığı ZAMAN AĞRISIndan danışır.**

Səhnənin obyekti canlı insan, onun həyatı, cəmiyyətdə tutduğu mövqeyi, pis, yaxşı tərəfləridir. "37"-lərin taleyini əks etdirən "Kod adı: VXA" faciə təcəssümü daha çətin, daha ağırdır. Bəlkə də buna görədir ki, hörmətli rejissorumuz teatrın ilkin yaradıcı prosesində olduğu kimi, normadan artıq məşq keçir. Və bütün heyət bu məşq prosesində bir əsgər kimi intizamla cərgələnir.

Rejissor göstərişləri dramaturqun göstəricilərini dirçəldir, yəni dramatirji material səhnə təcəssümü ilə tamaşa ideyasına xidmət edir. İstedad və ağlın qovuşuğundan yaranan belə bir təcəssüm nadir təcəssümdür!

Ədəbi materialın səhnəyə köçürülmə priyomunda düşünmək lazımdır ki, həyati model təkcə müasir tamaşaçı auditoriyasına hesablanmamışdır. Məqsəddə nəsillərə ötürüm, tarix içində yeni tarix yaratmaq istəyi də var.

Mehriban Ələkbərzadə təəccübləndirməyi sevir: dramaturji materialların fərqli təcəssümü, 32 ildən çox yaradıcılığında müşahidə etdiyimiz fərqli fitri ötürümlərlə, bədii-publisistikada, eyni zamanda, bədii yaradıcılıqda fərqli sərlövhələrlə, həm də fərqli ifadə formaları ilə diqqəti cəlb edir! O - BİZİMDİR-Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının!!!

### OBRAZ GERÇƏKLİYİ

Personaj əməldə açılır. Əməl yoxdursa, personaj da qapalı qalır. Onun mahiyyət və keyfiyyəti açılırsa, obraz gerçəkliyi yaranır. Mehriban Ələkbərzadənin orijinal tapıntıları olsa da, bütün konseptual və praktik çözümlərdə buyurulan qanun çərçivəsindən kənara çıxmayıb. Və tamaşanın bütün obrazlarını və onun ifaçılarını kənardan parlaq görünən bir qəlibə salıb.

*(Ardı var)*



**Rafiq Rəhimli, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının ədəbi-dram hissə rəhbəri, Əməkdar Mədəniyyət işçisi, "Qızıl Kitab" mükafatı laureatı**

Azad Azərbaycan.- 2023- cü il.- 26 yanvar.- S. 7.